Funded by
the European Union

EU4Environment
Armenia, Azerbaijan, Belarus, Georgia, Republic of Moldova, Ukraine

ŞƏRQ TƏRƏFDAŞLIĞI ÖLKƏLƏRİNDƏ DÖVLƏTİN YAŞIL İNVESTİSİYALAR ÜZRƏ MALİYYƏLƏŞDİRMƏ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ

Vebinar

# Yaşıl dövlət investisiya proqramlarının hazırlanması və həyata keçirilməsi

İlkin gündəlik

**Cümə, 25 Fevral 2022, 14:00 – 18:15 (Bakı vaxtı ilə) / 11:00 – 15:15 (MAV)**

Vebinara qeydiyyat üçün bu keçidə daxil olun

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

## Ümumi məlumat

### *Layihənin Məqsədləri*

Avropa İttifaqının maliyyələşdirdiyi "EU4Environment" proqramı Şərq Tərəfdaşlığı regionundakı ölkələrə, eləcə də Azərbaycana ekoloji təmiz və dayanıqlı inkişaf yoluna qədəm qoymağa imkan verən milli idarəçilik və nəzarət mexanizmlərini təkmilləşdirməyə kömək edir. Dövlət xərclərinin səmərəliliyi və effektivliyi ətraf mühit və iqlimlə bağlı məqsədlərə nail olmaqda mühüm rol oynayır.

"Azərbaycanda yaşıl dövlət investisiyası proqramının hazırlanması və təlimlərin keçirilməsi" adlı layihənin əsas məqsədi Azərbaycanda dövlət məmurlarını və ekspertləri ətraf mühitin qorunması üzrə ictimai xərclər proqramının hazırlanması üçün nou-hau və praktiki bacarıqlar ilə təmin etməkdir. Bu cür proqramlar dövlət büdcəsindən adekvat resurslar əldə etməyə və onun həyata keçirilməsi üçün beynəlxalq səviyyəli ortaq maliyyə resurslarından istifadə etməyə kömək edir. Layihə İƏİT tərəfindən Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir.

Layihə su təchizatı sektorunda milli məqsədlərə nail olunmasına xüsusi diqqət yetirməklə ətraf mühitin mühafizəsi ilə bağlı dövlət xərclərini daha yaxşı idarə etmək üçün hökumət orqanlarının imkanlarını artırmağa texniki yardım göstərir. Dövlət dəstəyi proqramının təklif olunan investisiya tədbirləri keyfiyyətli su təchizatının azalmasını aradan qaldırmağa yönələcəkdir. Proqram qeyri-standart su ehtiyatlarından, xüsusən də yeraltı sulardan və yerüstü suların toplanmasından daha geniş istifadəyə imkan yaradacaq.

Layihənin məqsədi proqramın inkişafını dörd əsas fəaliyyət sahəsinə istiqamətləndirməkdir:

1. Su götürülməsi/tutulması həcmlərinin artırılması
2. Mövcud su saxlama imkanlarının artırılması
3. Yeraltı su səviyyəsinin bərpasının/artırılmasının təmin edilməsi
4. Səmərəli su təchizatını təmin edilməsi

Hazırlanmış yaşıl dövlət investisiya proqramı gələcəkdə su təchizatının su tələbatını təmin edə bilməsi üçün səth suları və yeraltı suların birlikdə istifadə etməklə su təchizatı mənbələrinin şaxələndirilməsi məqsədinə töhfə verəcəkdir (iqlim dəyişikliyinin su ehtiyatlarına təsiri üzrə proqnozları nəzərə almaqla).

Proqram həmçinin iqlim dəyişikliyinə həssas olan regionlar (qrunt sularının səviyyəsi aşağı olan və ya tez-tez daşqınlar baş verən ərazilər) üçün su təminatının yaxşılaşdırılmasına töhfə verəcək. Bu proqramın əsas anlayışı ondan ibarətdir ki, dövlət ekoloji xərcləri (birbaşa və ya dolayı) gələcək su təchizatının etibarlılığı və təhlükəsizliyi ilə bağlı bəzi fundamental problemlərin həlli üçün əsas alət rolunu oynayır.

### *Siyasət konteksti*

Azərbaycanın Milli Su Strategiyası və Fəaliyyət Planı hazırlanmış və sonuncusu Prezidentin 2020-ci il 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Tədbirlər Planı qısamüddətli perspektivdə həyata keçirilməlidir və əsasən institusional potensialın və hüquqi bazanın təkmilləşdirilməsinə yönəlib. Xüsusilə orta və uzun müddətli investisiyalar olacaq. Su ehtiyatları inventarları və çay

hövzəsinin vahid idarəetmə planlaması tətbiq ediləcək. Xərclərin ödənilməsi üzrə tariflər əsasında sudan səmərəli istifadə təşviq ediləcək.

Tədbirlər Planında həmçinin 15.7.4-cü bənddəki "DİM-lərə uyğun olaraq əhalinin keyfiyyətli içməli su ilə təminatının genişləndirilməsi" kimi tədbirlər, o cümlədən irriqasiya infrastrukturunun bərpası, su itkilərinin azaldılması proqramları öz əksini tapıb.

Su Strategiyasının və Fəaliyyət Planının seçilmiş məqsədlərinə nail olunmasını asanlaşdırmaq üçün iqlim dəyişikliyindən ən kəskin şəkildə təsirlənəcəyi gözlənilən ərazilərdə su təchizatının genişləndirilməsinə və təhlükəsizliyin təmin edilməsinə investisiyaların yönəldilməsi və cəlb edilməsi üçün yaşıl dövlət xərcləri proqramı hazırlanır. Bu proqramın tərkib hissəsi xidmət olunmayan və həssas ərazilərdə su təchizatının davamlılığının yaxşılaşdırılması üçün kiçik miqyaslı tədbirlərə investisiyaların ayrılmasının da daxil olduğu layihələr portfelinin müəyyən edilməsidir.

**Əlavə: Yaşıl dövlət investisiya Proqramlarının Seçilmiş Nümunələri**

İƏİT 2012-ci ildən etibarən Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya (ŞAQMA) hökumətlərinə yaşıl dövlət investisiyası proqramlarının layihələndirilməsi və dəyərinin hesablanmasında, həmçinin nəzərə alınmalı olan əlavə fəaliyyətlərin və proqramların faktiki həyata keçirildiyi yer üzrə tələblərin dəstəklənməsi üçün texniki yardım göstərir və potensialın yaradılması ilə məşğul olur. Yaşıl dövlət investisiya proqramları mənzil sektorunun (Qazaxıstan), eləcə də təmiz şəhər ictimai nəqliyyatının (Qazaxıstan, Qırğızıstan, və Moldova) enerji səmərəliliyi üçün hazırlanmışdır. İlkin texniki yardımdan əlavə, EU4Environment təşəbbüsü (Moldova) hazırda proqramın həyata keçirilməsi üçün potensialın gücləndirilməsi üzrə tədbirlər həyata keçirir. Cari mərhələdə EU4Environment Aİ-nin iki Şərq Tərəfdaşlığı (ŞT) ölkəsində və iki yeni ekoloji alt sektorda: su təchizatı (Azərbaycan) və bioloji parçalana bilən tullantı axınında (Gürcüstan) dövlət xərclərinin idarə edilməsinin gücləndirilməsini dəstəkləyir. Proqramlar qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq hazırlanmışdır və Milli Orta Müddətli Xərclər Çərçivəsində (MTEF) digər aşağı karbonlu dövlət investisiya proqramlarının hazırlanması üçün model rolunu oynaya bilər.

## Təlimin məqsədləri

- Layihə Qrupu tərəfindən təklif olunan Proqramın əsas elementlərinin təqdim edilməsi, müzakirə olunması və razılaşdırılması (məsələn, potensial layihə portfeli üçün ekoloji prioritetlər, hədəflər, əsas benefisiarlar və Proqram vasitəsilə dəstəklənəcək əsas layihə növləri) və bu elementlər üçün irəli sürülən fərziyyələrin reallığının yoxlanılması.
- Proqramın maliyyələşdirilməsi və icrası ilə bağlı potensial problemlərin müəyyən edilməsi və müzakirəsi. Proqramın həyata keçirilməsini təmin etmək üçün yerinə yetirilməli olan hüquqi və tənzimləyici dəyişikliklər üçün prioritet siyasət tədbirlərinin müəyyən edilməsi və razılaşdırılması
- Dövlət məmurlarının və digər müvafiq ekspertlərin qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq hazırlanmış müasir idarəetmə alətlərinə çıxışı təmin etməklə, orta və

uzunmüddətli yaşıl dövlət investisiya proqramlarının layihələndirilməsi və qiymətləndirilməsində bacarıq və anlayışlarının təkmilləşdirməsi.

- Dövlət məmurlarının və digər müvafiq ekspertlərin proqramın icrası və xüsusilə Proqram vasitəsilə maliyyələşdiriləcək investisiya layihələrinin qiymətləndirilməsi və seçilməsi üsulları üzrə bacarıq və anlayışlarının təkmilləşdirməsi.
- Su təchizatındaki ətraf mühit və iqlimlə ilə əlaqədar problemlərin qarşısını alan avadanlıq və texnologiyalara özəl (qeyri-dövlət) investisiyaların cəlb edilməsində Azərbaycana və digər ŞT ölkələrinə dəstək verilməsi.

### Təlim iştirakçıları

Təlim sessiyası 20 iştirakçı üçün nəzərdə tutulub. Təlim iştirakçıları ətraf mühitlə bağlı ictimai proqramların və ya su sektorundaki proqramların layihələndirilməsi və idarə edilməsində təcrübəsi olan müxtəlif nazirliklərin, agentliklərin, eləcə də yerli hökumət orqanlarının və QHT-lərin əməkdaşları ola bilər.

İƏİT bu təlimin təşkilində Avstriyanın Kommunalkredit İctimai Konsaltinq (KPC) ilə əməkdaşlıq edir.

### Praktik məlumat

Görüş zamanı ingilis-azərbaycan dillərində sinxron tərcümə təmin ediləcək.

### EU4Environment Haqqında

"Avropa İttifaqı Ətraf Mühit Naminə" (EU4Environment) Layihəsinin məqsədi altı tərəfdaş ölkədə (Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukrayna) ekoloji fəaliyyətləri dəstəkləməklə, yaşıl inkişaf imkanlarını nümayiş etdirməklə və rəvac verməklə, həmçinin ekoloji risk və təsirlərin daha yaxşı idarə olunması üçün mexanizmləri müəyyənləşdirməklə təbii sərvətləri qorumağa və əhalinin rifahını yaxşılaşdırmağa kömək etməkdir. Fəaliyyət Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və beş Tərəfdaş təşkilat: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, BMT Avropa İqtisadi Komissiyası, BMT Ətraf Mühit Proqramı, BMT Sənaye İnkişafı Təşkilatı və Dünya Bankı tərəfindən təxminən 20 milyon avroluq büdcə əsasında həyata keçirilir. Fəaliyyətin icra müddəti 2019-2022-ci illərdir.

Əlavə məlumat üçün əlaqə: EU4Environment@oecd.org

Layihənin saytı: https://www.eu4environment.org

## İLKİN GÜNDƏLİK

| | |
|---|---|
| **Sessiya 1** | **Görüşün açılışı** |
| 14:00 – 14:10<br>(10 dəq) | • Vebinarın məqsədləri, layihə haqqında məlumat və məruzəçilərin təqdimatı<br>**David Simek,** İƏİT |
| **Sessiya 2** | **Azərbaycanda Yaşıl Dövlət İnvestisiya Proqramının təqdimatı** |
| 14:10 – 14:20<br>(10 dəq) | • Yaşıl Dövlət İnvestisiya Proqramına giriş<br>**David Simek,** İƏİT |
| 14:20-14:40<br>(20 dəq) | • Azərbaycanın su ehtiyatları və sudan istifadəyə dair ümumi məlumat<br>**Fərda İmanov,** Bakı Dövlət Universiteti |
| 14:40-15:10<br>(30 dəq) | • Azərbaycan üçün təklif olunan Yaşıl Dövlət İnvestisiya Proqramının təqdimatı<br>**David Toft,** Kommunalkredit İctimai Konsaltinq |
| 15:10-15:30<br>(20 dəq) | • Azərbaycanın su təchizatı sektorunda yaşıl texnologiyaların tətbiqi<br>**Anar Nuriyev**, Bakı Dövlət Universiteti |
| 15:30-15:50<br>(20 dəq) | • Avropa Birliyinin su təchizatı sektorunda istifadə olunan yaşıl texnologiyaların, o cümlədən su itkilərinin aşkarlanmasının nəzərdən keçirilməsi<br>**Christian Oberleitner,** Kommunalkredit İctimai Konsaltinq |
| 15:50-16:00<br>(10 dəq) | • Sual-cavab və müzakirə<br>**Christian Oberleitner (**Kommunalkredit İctimai Konsaltinq) tərəfindən aparılacaqdır |
| 16:00-16:10<br>(10 dəq) | • Fasilə |
| **Sessiya 3** | **Yaşıl Dövlət İnvestisiya Proqramını necə hazırlamaq olar?** |
| 16:10 – 16:25<br>(15dəq) | • Proqramlaşdırma dövrü, proqram prioritetlərinin və hədəflərinin müəyyən edilməsi və proqramın monitorinqi, hesabatı və qiymətləndirilməsi<br>**David Toft,** Kommunalkredit İctimai Konsaltinq |

| | |
|---|---|
| 16:25 – 16:40<br>(15 dəq) | • Proqramın dəyərinin hesablanması<br>**Rafal Stanek,** Kommunalkredit İctimai Konsaltinq |
| 16:40 – 16:55<br>(15 dəq) | • Dövlətin maliyyə dəstəyinin optimal səviyyəsinin müəyyən edilməsi və maliyyə dəstəyinin formasının seçilməsi<br>**Rafal Stanek,** Kommunalkredit İctimai Konsaltinq |
| **Sessiya 4** | **Yaşıl Dövlət İnvestisiya Proqramını necə həyata keçirmək olar?** |
| 16:55 – 17:05<br>(10 dəq) | • Layihə Dövrünün İdarə Edilməsinə Giriş (PCM)<br>**Rafal Stanek,** Kommunalkredit İctimai Konsaltinq |
| 17:05 – 17:20<br>(15 dəq) | • Ətraf mühit üçün ayrılmış sərmayələrin qiymətləndirilməsi üsulları – Dinamik İstehsal Xərclər və İllik Xərclər daxil olmaqla Xərc Effektivliyinin Təhlili (CEA)<br>**David Toft,** Kommunalkredit İctimai Konsaltinq |
| 17:20 – 17:30<br>(10 dəq) | • Ətraf mühit üçün ayrılmış sərmayələrin qiymətləndirilməsi üsulları – Çox meyarlı təhlil (kəmiyyətlə ölçülə bilən və ölçülə bilməyən) – Qiymətləndirmə sistemləri<br>**Rafal Stanek,** Kommunalkredit İctimai Konsaltinq |
| 17:30 – 17:40<br>(10 dəq) | • Proqramın icrasının idarə edilməsi: prosedurlar, təklif sorğuları, qiymətləndirmənin təşkili<br>**David Toft,** Kommunalkredit İctimai Konsaltinq |
| 17:40 – 18:00<br>(20 dəq) | • Texniki-iqtisadi əsaslandırma (su sektorunda layihənin hazırlanması üçün əsas sənəd kimi)<br>**Rafal Stanek,** Kommunalkredit İctimai Konsaltinq |
| 18:00-18:10<br>(10 dəq) | • Sual-cavab və müzakirə<br>**Christian Oberleitner (**Kommunalkredit İctimai Konsaltinq) tərəfindən aparılacaqdır |
| **Sessiya 5** | **Görüşün yekunu** |
| 18:00 – 18:15<br>(5 dəq) | • Görüşün xülasəsi və əsas nəticələr<br>**David Simek,** İƏİT |
| | *Əlaqədar sənədlər:*<br>• Təqdimatlar (İngilis və Azərbaycan dillərində)<br>• İlkin Yaşıl Dövlət İnvestisiya Proqramı (İngilis dilində) |